# KİMYANIN TƏDRİSİNƏ YENİ YANAŞMALAR

**G.V.Şadlinskaya, Y.A.Hidayətova**

*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Müasir dövrdə ölkəmizdə artıq doqquz ildir ki, ümumtəhsil məktəblərində təhsil yeni fənn kurikulumlarının tələbləri əsasında hazırlanmış şagirdyönlü dərsliklərlə həyata keçirilir. Yeni dərsliklərlə kimyanın tədrisində şagirdlərdə həyati bacarıqların tərbiyə olunmasına, onların müstəqil fəaliyyət və praktik vərdişlərinin inkişaf etdirilməsinə diqqət artırılmışdır. Dərsliklərin məzmununun kurikulumların və yeni pedaqoji innovasiyaların tələblərinə adaptasiya olunması sahəsində tədqiqatlar, araşdırmalar davam etməkdədir. Bu baxımdan ali məktəblərdə tədris olunan "Kimyanın tədrisi metodikası" kursunun məzmunu kurikulum islahatı və müasir pedaqoji innovasiyaların tələbləri əsasında yenilənməli, zamanın tələblərinə uyğunlaşdırılmalıdır [1].

Digər fənlər kimi kimya fənninin də özünəməxsus xüsusiyyətləri var. Tədris prosesində bu xüsusiyyətlərin nəzərə alınması zəruridir. Tədris prosesini aktiv şəkildə həyata keçirmək, şagirdlərin fəallığına nail olmaq, onların düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək, kimya fənninin öyrənilməsi əhəmiyyətini dərk etdirmək, biliklərin mənimsənilməsinə və onların praktik olaraq tətbiq edilməsinə maraq yaratmaq hər bir kimya müəlliminin əsas məqsədidir. Sadalanan məqsədləri həyata keçirməyi qarşıya qoyan hər hansı bir müəllim şagirdləri fəal təlimə cəlb edə bilən metod, texnika və üsullarla yaxından tanış olmalı, iş prosesində qarşıya çıxan çətinlik və çatışmazlılıqları aradan qaldırmaq yollarını bilməli, habelə tətbiq olunan metodların əhəmiyyətini başa düşməlidir [2].

Müasir kimya dərsləri tədqiqat şəraitində keçilməlidir. Ona görə şagirdləri qrup və ya cütlər şəklində tədqiqata yönəltməklə, onlara əməkdaşlıq etmələri üçün şərait yaradılmalıdır. Tədqiqat işini təşkil etmək üçün iş vərəqləri tərtib edilməlidir. İş vərəqlərində kiçik qruplara və ya cütlərə verilən problem və onun həllinin nəticələri əks olunmalıdır. Eyni zamanda hazırlanan iş vərəqləri dərsin məqsədinə xidmət etməlidir.

Kimya insan həyatının bütün sahələrinə nüfuz edən bir elmdir. Kurikulumda bu mühüm amil nəzərə alınaraq, kimyanın tədrisi zamanı şagirdlərə bu elmə maraq, riyazi hesablamalar, yeni texniki vasitələrdən istifadə etmək, təbiətdə baş verən hadisələri, maddi aləmdə gedən dəyişiklikləri dərk etmək, həyatda, məişətdə ekoloji problemlərin həllində iştirak etmək bacarığı aşılanmalıdır. Kimya fənn kurikulumunda fənnin məzmunu və vəzifələri ilə yanaşı, zəruri olan təlim strategiyaları, innovativ metodlar və üsullar müəyyənləşdirilmişdir. Kurikulumun

qarşıya qoyduğu məqsəd və vəzifələr hər hansı bir şagirdin kimya fənni üzrə əldə etdiyi bilik və bacarıqlarla əlaqələndirilməsini nəzərdə tutur, təlim prosesində inteqrativlik ön plana çəkilir. Fənlərarası inteqrasiya qazanılan biliyin müxtəlif fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin edir. Şagirdlərdə səmərəli ünsiyyət, fərqli yanaşma, problemin həlli və s. kimi bacarıqlar formalaşır [3].

Son illər ayrı-ayrı fənlərin tədrisi metodikası istiqamətində yeni informasiya texnologiyalarının müxtəlif fənlərin tədrisində yeri və rolunun müəyyənləşdirilməsinə dair çoxlu tədqiqat işləri aparılmışdır. Yeni informasiya texnologiyaları vasitələrinin təlim prosesinə daxil edilməsi məktəb fənlərinin tədrisində təlimin texniki vasitələrinin rolunu əhəmiyyətli dərəcədə artırmışdır [4].

Əyani vasitələr, texniki vasitələr, laboratoriya məşğələləri üçün avadanlıq, didaktik paylama materialları, tədris ədəbiyyatı və s. təlim vasitələrinə aiddir.

Əyani vasitələr deyəndə kimya fənninə aid plakatlar, illüstrativ şəkil və sxemlər, diaqramlar, cədvəllər, nümayiş etdirilən cihazlar , materiallar və s. nəzərdə tutulur. Diaproyektor, maqnitafon vasitəsilə tətbiq edilən diapozitivlər, diafilmlər, kinofilmlər, videofilmlər, komputer və s. texniki vasitələrdir . Hazırda bu vəsaitlər tədricən öz yerini multimedia vasitələrinə verməkdədir. İKT - nin şagirdlərin biliklərinin dəqiqləşdirilməsində böyük əhəmiyyətə malik olduğu nəticəsinə gəlmək olar. İKT-dən istifadə məktəblilərin müstəqil yaradıcı işinə şərait yaradır, öyrənilən halları təhlil etməyə, mahiyyətini daha dərindən öyrənməyə köməklik göstərir .

Şagirdlər əvvəllər fənlərə aid məlumatı dərsliklərdən, sorğu kitabçalarından, dərs vəsaitlərindən, televiziya verilişlərindən alırdısa, bu gün bunları internet, elektron kitab və s. təşkil edir. İKT-dən tədris prosesində elə istifadə etmək lazımdır ki, şagird dərsdə fəal iştirak etsin. Öyrənilən mövzuların məzmununa uyğun videofilmlərdən, diafilmlərdən, videoyazılardan, komputer texnikasının imkanlarından geniş istifadə olunarsa, biliklər daha möhkəm və əsaslı şəkildə möhkəmlənər.

Vaxtı ilə məktəbdə geniş tətbiq edilən vizual informasiya texnologiyalarından biri diaproyektor idi. Diaproyektorlar vasitəsilə diafilm və yaxud diapozitivlər nümayiş etdirilirdi. Diafilmlə adi şəkil arasındakı fərq bundadır ki, diafilmdə şəkillər müəyyən süjetə əsasən çəkilir və elə düzülür ki, məktəblilər ekranda bir-birini izləyən, biri digərinin ardınca gələn kadrlara tamaşa edərək verilən məzmunu başa düşürlər. Qeyd etmək lazımdır ki, indi artıq komputerlərdə istənilən formalı slaydlar yaratmaq mümkündür ki, bunun da öhdəsindən istənilən müəllim çox asanlıqla gələ bilir .

Yeni təlim texnologiyalarının, fəal və interaktiv təlim metodlarının, innovasiyaların, informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi təhsilin keyfiyyətinin artmasına öz töhvəsini verməkdədir. Yeni informasiya texnologiyalarından, həmçinin multimedia proqramlarından istifadə təlim - tədris

prosesində müəllimlərə öz pedaqoji ideyalarını daha asan həyata keçirməyə imkan verir. Prinsip etibarilə, istənilən pedaqoji texnologiya informasiya xarakterlidir və tədris prosesində tədris keyfiyyətinin artırılması üçün istifadə olunur.

Multimedia termini iki sözdən ibarətdir : multi – çox, media – daşıyıcı. Tədris mövzularının bir çox müxtəlif yollarla, yəni qrafika, foto, video, animasiya və səslə təqdim olunmasıdır.

Müasir texniki vasitələrdən istifadə şagirdlərə tam və dəqiq məlumat verməyə imkan yaradır. Buna görə də müasir dərsi nəinki yalnız yaxşı təchiz olunmuş kabinet və laboratoriyasız, həmçinin müasir texniki vasitələrsiz təsəvvür etmək mümkün deyildir. Şagirdlərə kimya istehsalatının elmi – texnoloji və səmərəli təşkilat prinsiplərini əyani surətdə öyrətmək üçün tədris kinofilmlərinin böyük əhəmiyyəti var.

Kinofilmlərdən 2 variantda istifadə edilə bilər:

1. Yeni dərsi izah etməzdən əvvəl ;
2. Yeni dərsin materialı izah edildikdən sonra .

1 – ci variantda mövzuya aid kinofilm göstərilir (8-10 dəqiqə) və şagirdlərə prosesləri nəzərdən keçirmək üçün tapşırıq verilir . Sonra şagirdlər müəllimin əvvəlcədən hazırladığı suallar əsasında müstəqil iş yerinə yetirirlər . 2 – ci variantda dərs materialı izah edildikdən sonra , mövzunu möhkəmləndirmək üçün müvafiq kinofilm nümayiş etdirilir . Kimya dərslərində kinofilmlərdən istifadə olunması şagirdlərin düşünmə qabiliyyətini inkişaf etdirir, uşaqların müasir texnikaya marağını daha da artırır .

Yeni təlim texnologiyaları əsasında dərsləri keçərkən çalışmaq lazımdır ki, şagirdlər öz biliklərini yeni mövzuya uyğunlaşdıra bilsinlər, yəni, elə mövzular seçmək lazımdır ki, bu mövzuların məzmunu şagirdlərin bilik dairəsinə yaxın olsun. Məcburi deyildir ki, bütün mövzular yeni təlim texnologiyaları əsasında tədris edilsin. Mövzunun xarakterindən asılı olaraq ənənəvi təlim metodlarından da istifadə etmək lazımdır . Ənənəvi təlim metodları da şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsində stimullaşdırıcı rol oynayır [5].

Oyun, ictimai təcrübənin yenidən yaradılmasına və mənimsənilməsinə yönəlmiş fəaliyyətdir. Təlim prosesində oyun fəaliyyətinin tətbiqi nəticəsində şagird özünüidarəetmə davranışını təkmilləşdirir və formalaşdırır. Oyunda zəif oxuyan uşaqlar da həvəslə iştirak edir və bəzən yaxşı nəticələr göstərirlər. Bu onlarda özünə inamı artırır. Ən əsası da odur ki, oyun prosesində uşaq öyrənir, bilik və bacarıqlar qazanır.

Müasir dövrümüzdə təlim prosesində iştirak edən hər bir uşağın yaradıcı təfəkkürünü maksimal dərəcədə inkişaf etdirmək üçün müxtəlif təlim metodları və üsullarından istifadə edilir. Bu vasitələrin içərisində didaktik oyunlar öz

səmərəliliyi ilə xüsusilə seçilir. Didaktik oyunlar hər bir fənnin tədrisində və eyni zamanda şagirdin bütün yaş səviyyələrində tətbiq edilə bilər.

Didaktik oyunlar şagirdlərin kollektivlə işləmək bacarıqlarını formalaşdırır. Prosesə hazırlıq mərhələsində və prosesin gedişi zamanı uşaqlar bir-birinə qarşı ünsiyyət mədəniyyətini öyrənir, kollektivlə işləməyi bacarır, öz xarakteri və vərdişləri üzərində çalışmaqla psixoloji baryerləri aşmağa nail olurlar.

Didaktik oyunlar eyni zamanda təlim prosesindəki emosional atmosferi də dəyişdirməyə imkan verir. Belə ki, təlim prosesini daha canlı edir, yorğunluğu və gərginliyi aradan qaldırır, eyni zamanda şagird-müəllim münasibətlərini yaxşı mənada dəyişdirir. Bu isə şagirdlərin yeni informasiyaları daha rahat şəkildə mənimsəməsinə imkan verir.

Yanlış olaraq, bəzən didaktik oyunlara əyləncə və istirahət predmeti kimi baxırlar. Lakin bu düzgün yanaşma deyil, təhsili oyunla qarışdırmaq olmaz. Didaktik oyunlar - şagirdləri aktiv və yaradıcı fəaliyyətə qeyri-iradi olaraq cəlb edən təlim üsuludur və onu hər bir fənnin tədrisində uğurla tətbiq etmək olar. Didaktik oyunlar dərslərdə mövzudan asılı olaraq öyrədici, ümumiləşdirici, yoxlamaq, bilikləri möhkəmləndirmək və s. məqsədlər üçün istifadə oluna bilər.

Kimyanın tədrisi zamanı da müxtəlif tipli oyunlardan istifadə etmək olar. Kimya dərslərində bu tip didaktik oyunlardan istifadə olunması şagirdlərin fənnə marağını və təlimin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Onlardan bir neçəsini nəzərdən keçirək :

1. “Sıranın davam etdirilməsi” oyunu.

Müəllim lövhəyə iki elementlər sırasını yazır:

A. – Na , Mg , Al , Zn                B. – N , P , As , Sb ...

Sonra isə şagirdlərə müraciət edir : bu sıralarda hansı qanunauyğunluq var? Bu sıralardakı qanunauyğunluğu kim deyər və izah edər? Belə sıranı kim davam etdirər? O, bildirir ki, sıralarda mürəkkəb maddələr (oksidlər, əsaslar, turşular, duzlar) də ola bilər. Oyunda iştirak etmək istəyən şagirdlər təklif etdiyi sıraları lövhədə yazır və qanunauyğunluğu izah edirlər. Yaza bilməyən və qanunauyğunluğu aşkarlamayan oyunda iştirak edə bilmir.

2. “Artıq olanı çıxarın oyunu”.

Bu oyunda kimyəvi birləşmələr sırası verilir və şərtə uyğun olmayanın çıxarılması tələb olunur.

Məsələn: a) KCl, $KNO_3$, NaCl, $AgNO_3$, $Na_2SO_4$ sırasından təbiətdə rast gəlinməyən birləşmələri çıxarın.

b) NaOH, $Ca(OH)_2$, $Al(OH)_3$, $Ba(OH)_2$, $Cu(OH)_2$ sırasından amfoter hidroksidi çıxarın və s.

İş cütlərlə yazılı şəkildə yerinə yetirilir, müəllim və ya fəal şagirdlər

nəticələri yoxlayaraq sinfə elan edir.

3. "Əks loto" oyunu.

Şagirdlərə üzərində hər hansı maddənin formulu yazılmış kiçik kartlar verilir və kart o biri üzünə həmin maddəyə əks xassə göstərən maddələrin formullarını yazmaq tələb olunur. Məsələn, turşu formulu yazılan kartın o biri üzünə əsasların, əsasi oksidin formulu yazılmış kartın o biri üzünə turşu oksidlərin formulları yazılır. Eyni zamanda, formulları yazılmış maddələrin adları soruşulur.

4. "Üçüncüsü artıqdır" oyunu.

Bu oyunda sıralarda üç maddənin formulu yazılır və şagirdlərdən eyni sinfə mənsub olan iki maddənin formulunu saxlamaq, üçüncünü (mənsub olmayanı) isə silmək, üstdən xətt çəkmək tapşırılır. Tapşırıq fərdi şəkildə və ya kiçik qrup (3-4 şagird olan) tərəfindən yerinə yetirilə bilər. Kiçik qrupa tapşırıq verilərkən sıranın sayı qrupdakı şagirdlərin sayı qədər olur. Qrup tərəfindən iş aparıldıqda estafet qaydasında hər sıranı bir şagird cavablandırır.

Tapşırıq nümunəsi :

1) $MgO$, $SO_2$, $CaO$ turşu oksidinin formulunu silin.
2) $HNO_3$, $HCl$, $NaCl$ duzun formulunu silin.
3) $K_2SO_4$, $H_2SO_4$, $CaCl_2$ turşunun formulunu silin.
4) $CuO$, $MgO$, $ZnO$ amfoter oksidin formulunu silin və s.

Yuxarı siniflərdə daha mürəkkəb və daha düşündürücü oyunlar təşkil edilir [6] .

Kimyanın tədrisinə yeni yanaşmalar mövzusu geniş və aktual mövzudur. Beləliklə, kimyanın tədrisində fəal təlim üsullarından, təlimin texniki vasitələrindən, didaktik oyunlardan, yeni təlim texnologiyalarından, İKT-dən və s. istifadə etməklə dərsi daha maraqlı etmək mümkündür.

İnnovativ üsullarla tədris edilən mövzular şagirdlərin diqqətini cəlb etməklə yanaşı, həmçinin onların dərsə daha həvəslə qulaq asmasına nail olur. Bu zaman müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Müəllim dərsdə müxtəlif təlim üsullarından, formalarından istifadə etməklə şagirdləri tədqiqatçılığa, düşünməyə və axtarışlar aparmağa yönəldir.

Əvvəlcə müəllimdən İKT bacarığı tələb olunur. İKT - dən düzgün istifadə olunması tədris prosesinə yenilik gətirir, şagirdlərin öyrənmə marağını artırır, müəllimin dərsə hazırlaşmasını asanlaşdırır.

## İstifadə edilmiş ədəbiyyat:

1. A.Hacıyev. Tədris resurslarının hazırlanması: Müasir yanaşmalar. Azərbaycan Respublikasının Təhsil İnstitutu. Bakı 2017.
2. "Kimya məktəbdə" jurnalı, 2012, № 3-4.
3. Ş.Mahmudova. Dərsə marağın yaradılmasında innovativ metodlardan istifadə. "Azərbaycan məktəbi" jurnalı, 2014, № 6.
4. R.Abdurazaqov,N.Məsimov,S.Cəlilova. Məktəbdə yeni informasiya texnologiyalarından istifadənin yeri və rolu. "Azərbaycan məktəbi" jurnalı,2011, № 2.
5. S.Bədiyev. Şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə. Dissertasiya, Bakı 2008.
6. Kurikulum elmi-metodik jurnalı, 2013, № 1.

*Г.В.Шадлинская, Е.А.Гидаятова*

**Новые подходы к обучению химии**

**РЕЗЮМЕ**

В статье излагаются общие теоретические вопросы методики обучения химии, с учетом современных педагогически-психологических нововедений. Также новыми подходами разьясняются организационные формы, методы и способы химического обучения, взаимосвязь способов обучения при изучении основ предмета.

*G.V.Shadlinskaya, Y.A.Hidayetova*

**New approaches to chemistry transformation**

**SUMMARY**

The article discusses general-theoretical issues of the teaching methodology of chemistry taking into account pedagogical-psychological innovations of the modern era. As well as in learning the basics of the subject, forms of teaching chemistry, medotations, methods of action, and mutual relationships of learning tools are clarified by new approaches.

**Açar sözlər:** innovasiya, texniki vasitələr, didaktik oyunlar, yeni təlim texnologiyaları

**Ключевые слова:** инновация, технические средства, дидактические игры, новые технологии обучения

**Key words:** innovation, technical means, didactic games, new training technologies.